**ƏLƏVİYYƏ BABAYEVA**

# HÖRÜKLƏR





Həlimə bizim qonşumuz Sayalı nənənin nəvəsidir. Onun uzun, qara hörükləri vardır. Biz ya stol başında, ya da eyvanda oturub şəkil çəkəndə, hörükləri Həlimənin sinəsinə düşərdi. Həlimə də hörüklərini hey kürəyinə atardı. Biz geyinib küçəyə çıxanda, Həlimənin hörükləri adamların nəzərini cəlb edərdi.

Məktəbdə hamı Həliməyə „Hörüklü qız" deyərdi.

Sinfimizdə uzunsaçlı qızlar çoxdur. Onların hörükləri kürəklərinə ancaq çatırdı. Bu hörüklər çox səliqəsiz olurdu, uclarına bağlanmış lentlər açılıb orda-burda partaların arasına düşürdü. Tənəffüslərdə məktəbimizin xidmətçisi Tutu nənə, kapron lentləri barmaqlarının

ucunda yuxarı qaldırıb soruşurdu:

—A dəcəllər, yenə lent itirmisiniz? Qız gərək səliqəli olsun. Həliməyə bir baxın. Qız deyil, qızıl parçasıdır. Hələ onun saçlarını dağınıq görməmişəm!

Həlimə dinməzdi. Hamı həsədlə Həliməyə, Həlimə də pörtmüş halda mənə baxardı. Gülməmək üçün dodaqlarımı bir-birinə qısardım. Həlimə mənim dostumdur... Necə deyim ki, bu hörüklərin əhvalatı özləri qədər uzundur. Bu hörüklərin səliqəli olması üçün Sayalı nənə hər gün... yox, deməərəm...

Səhər məktəbə hazırlaşırdım. Çantamı tələsik yığdım. Dəhlizə çıxdım. Həliməni səslədim. Cavab gəlmədi. Dedim yəqin gecikmişəm. Yüyürərək məktəbə getdim.

Tutu nənə sinfi süpürürdü. Məni görcək dedi:

—A bala, nə xəbərdir? Gözünə yuxu getməyib?

Uşaqlar bir-bir, iki-bir gəlirdilər.





Bir azdan yağış başladı. Tutu nənə qapıları taybatay açdı. Uşaqlar hay-küylə dəhlizə doluşdular. Mən pəncərənin qabağında durub, uca sərv ağacları bitmiş yola baxırdım. Fikirləşirdim ki, görəsən Həlimə haradadır...



Zəng çalındı.

Sinfə girdik. Müəllim siyahını yoxlayırdı. Gözüm qapıda qalmışdı. O, təbaşiri götürüb, yazı taxtasına yaxınlaşdı. Elə bu zaman sinfimizin qapısı yavaşca cırıldadı. Həlimə içəri girdi. Kandarda dayandı. Müəllim əlini taxtadan çəkib, diqqətlə Həliməni nəzərdən keçirtdi.

Doğrusu, hamı Həliməyə təəccüblə baxdı. Elə bil o, həmişəki qız deyildi. Saçları pırtdaşmışdı. Önlüyü arxada səhv düyməlndiyindən ətəyi bir tərəfdən qalxmışdı.

Müəllimin qaşları çatıldı. Qızı sorğu-suala tutmadı. Həlimə yavaşca yerinə keçdi. Çantasını açdı. Mən taxtada yazılanları dəftərimə köçürməyə başladım. Həlimə isə böyrümdə qurdalanır, çantada nə isə axtarırdı.



Müəllim bizə tərəf gəldi. Böyrümüzdə durdu. Partanın üstünə tökülmüş dəftəri, kitabı nəzərdən keçirdi.

— Həlimə, de görüm, bu gün sənə nə olub?

Həlimə qızardı. Ətrafa göz gəzdirib çəkinə- çəkinə dedi:

—Müəllim, mənə heç nə olmayıb. Sayalı nənəm xəstələnib...

Müəllim dinmədi. Uşaqlar isə Həlimənin pırtdaşıq saçlarına, mürəkkəbə bulaşmış əllərinə baxıb gülüşdülər.



*Rəssamı: Elmas*

*Babayeva Ələviyyə Hənifə qızı*

Redaktoru İlyas Tapdıq. Bədii redaktoru Y. Ağayev.
Texniki redaktoru R. Əhmədov. Korrektoru T. Cəfərova.
Yığılmağa verilmiş 28/V-68-ci il. Çapa imzalanmış 23/X-68-ci il.
Kağız formatı 60 X 90. Çap v 1. Uçot nəşr. v. 1.
Sifariş 2869. Tirajı 25.000 Azərbaycan SSR Nazirlər Soveti yanında Mətbuat Komitəsi. "Gənclik" nəşriyyatı, Bakı, Hüsü Hacıyev küçəsi, 4. Bakı, «Kommunist» nəşriyyatının mətbəəsi.

